Bütün sistem üzrə 310 nəfər mədəni-maarif işçisi çalışır. 2007-ci ildə rayonun mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və əhaliyə göstərilən mədəni xidmətin səviyyəsinin yüksəldilməsi üçün tədbirlər planı işlənib hazırlanmışdır.

# Günün tələbləri səviyyəsində

*Xanlar Rayon Mədəniyyət və Turizm şöbəsinin nəzdində 48 kitabxana, 29 klub və mədəniyyət evi, 2 muzey, 1 musiqi məktəbi, 1 mədəniyyət və istirahət parkı, 31 yerli əhəmiyyətli tarixi abidə vardır.*

Rayonun mədəniyyət müəssisələrində görülən işlərin əsas istiqaməti prezident fərmanlarının, Milli Məclis qərarlarının, Mədəniyyət və Turizm Nazirliyinin kollegiya qərarlarının və əmrlərinin, eləcə də Rayon İcra Hakimiyyəti başçısının göstəriş və sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir. Bu məqsədlə rayonun mədəniyyət müəssisələrində «Xalqın xoş gələcəyi naminə», «Heydər Əliyev və Azərbaycan», «Xalqa həsr edilmiş ömür», «Bu qan yerdə qalan deyil», «Xanlarlı şəhidlər», «Xanlarlı Milli qəhrəmanlar» və s. başlıqlar altında sərgilər və guşələr təşkil edilmişdir.

Hazırda rayonun klub müəssisələrində 1000 nəfərdən artıq üzvü olan 119 bədii özfəaliyyət dərnəyi və kollektivi fəaliyyət göstərir. Həmin kollektivlərin köməyi ilə 2007-ci ilin I yarım ili ərzində klub müəssisələrində, təhsil ocaqlarında, hərbi hissələrdə, rayon hərbi komissarlığında xeyli mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir ki, bu da 2006-cı ilin müvafiq dövründə keçirilən tədbirlərdən həm kəmiyyətinə, həm də keyfiyyətinə görə fərqlənir.

Mədəni-maarif müəssisələrinin qüvvələrini düzgün istiqamətləndirmək üçün rayon Mədəniyyət və Turizm şöbəsinin, Mədəniyyət Şurasının, mədəniyyət işçilərinin ikigünlük seminar müşavirələrinin, Müstəqil Həmkarlar təşkilatının rayon komitəsinin yığıncaqlarının, hər həftənin bazar ertəsi keçirilən müşavirələrin yaratdığı imkanlardan geniş istifadə olunur. Xanlar Rayon Mədəniyyət və Turizm şöbəsinin gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi, ana dilinin inkişaf etdirilməsi, hərbi vətənpərvərlik və hərbi hamilik işinin gücləndirilməsi, narkomanlığın yayılmasının qarşısının alınması, tarix və mədəniyyət abidələrinin qorunmasına diqqətin artırılması, xalq yaradıcılığının, özfəaliyyət işinin yüksəldilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması və əmək intizamının gücləndirilməsi sahəsində konkret tədbirlər planı vardır.

Rayon mədəniyyət evinin foyesində ulu öndərimizə həsr olunmuş «Heydər Əliyev», «H.Əliyev və incəsənət xadimləri», həmçinin «Görkəmli incəsənət xadimləri», «Xanlar rayonu – dünən və bu gün», «Azərbaycanın Milli qəhrəmanları», «Mülki müdafiə», «Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri», «Rayon mədəniyyət evinin fəaliyyəti», «Fəxri idmançılarımız» mövzusunda foto-stendlər düzəldilmişdir. I rübdə nəzərdə tutulmuş «Xanlarlı Milli qəhrəmanlar» başlığı altında Tarix Diyarşünaslıq muzeyində və rayon mədəniyyət evində foto-stendin düzəldilməsi başa çatdırılmışdır.

20 yanvar şəhidlər günü və 26 fevral Xocalı soyqırımı ilə əlaqədar olaraq mərkəzi kitabxananın oxu zalında, uşaq kitabxanasının oxu zalında sərgilər və foto-stendlər təşkil olunmuşdur. Xocalı soyqırımı ilə əlaqədar olaraq 1 saylı orta məktəbin kollektivi ilə birgə ədəbi-bədii kompozisiya hazırlanıb rayon əhalisi qarşısında nümayiş etdirilmişdir.

MKS üzrə 329500 nüsxə kitab fondu var, o cümlədən ictimai elmlər üzrə 31800 nüsxə, təbiət və tibb elmləri üzrə 11700 nüsxə, texnika, kənd təsərrüfatı, meşə təsərrüfatı üzrə 14500 nüsxə, incəsənət, bədən tərbiyəsi və idman üzrə 9900 nüsxə, filologiya və ədəbiyyat üzrə 253900 nüsxə təşkil edir. Bunlardan azərbaycan dilində 269600 nüsxə, digər dillərdə isə 52200 nüsxə təşkil edir. 2007-ci ilin I yarım ili ərzində Mədəniyyət və Turizm şöbəsinin nəzdində fəaliyyət göstərən mədəniyyət müəssisələri ilə birgə 19 müxtəlif mövzularda tədbirlər keçirilmişdir.

Rayon mədəniyyət evinin özfəaliyyət kollektivi Yeni il bayramı münasibətilə Heydər Əliyev parkında geniş konsert proqramı ilə rayon əhalisi qarşısında çıxış etmişlər. Yanvarın 5-də çağırışçıların hərbi xidmətə yola salınma mərasimində «Nərgiz» xalq kollektivi konsert proqramı ilə çıxış etmişdir. 20

17022

Yanvar matəm günü münasibətilə şəhidlər xiyabanında keçirilən anma mərasimində Mədəniyyət və turizm şöbəsinin kollektivi iştirak etmişdir.

2 Fevral Gənclər günü münasibətilə rayon Mədəniyyət evində «Nərgiz» xalq kollektivi konsert proqramı ilə çıxış etmişdir.

24 fevral 2007-ci il tarixdə Musiqi Məktəbində Aşıq Ələsgərin yaradıcılıq gecəsi keçirilmişdir.

26 fevral Xocalı soyqırımı günü münasibətilə ədəbi-bədii kompozisiya təşkil edilmişdir. Tədbiri rayon mədəniyyət evinin və şəhər 1 saylı orta məktəbinin kollektivləri hazırlamışdır.

8 Mart Beynəlxalq Qadınlar bayramı münasibətilə şəhər 4 saylı orta məktəbində təntənəli bayram tədbiri təşkil edilmişdir. Tədbirdə mədəniyyət evinin «Nərgiz» xalq kollektivi maraqlı konsert proqramı nümayiş etdirmişdir.

Xalqımızın əziz bayramı olan «Novruz» bayramı münasibətilə cari ilin I rübü ərzində keçirilən tədbirlərin sayı da ötən illə müqayisədə xeyli artmışdır. Belə ki, martın 19-da rayon Mədəniyyət evində «Novruz» bayramı münasibətilə təntənəli bayram tədbiri təşkil edilmişdir. Tədbirdə Mədəniyyət və Turizm şöbəsi nəzdində fəaliyyət göstərən bütün mədəniyyət müəssisələri iştirak etmişdir.

20 mart 2007-ci il tarixdə Murovdağ cəbhə bölgəsində və Toğana kəndində yerləşən «N» saylı hərbi hissədə rayon mədəniyyət evinin özfəaliyyət kollektivi çıxış etmişdir. Çaykənd kənd Mədəniyyət evinin işçiləri əsgər və zabitlərə bayram sovqatı da göndərmişdir.

Mart ayının 22 və 26-da rayon Mədəniyyət evinin «Sevinc» instrumental ansamblı rayon əhalisi qarşısında bayram konsertləri nümayiş etdirmişdir.

26 martda XX əsr aşıq sənətinin ən görkəmli nümayəndələrindən biri olan Aşıq Şəmşirin yaradıcılıq gecəsi yüksək təntənə ilə qeyd edilmişdir.

31 Mart Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar kitabxanalarda və muzeydə foto-sərgilər düzəldilmişdir.

9 May Alman faşizmi üzərində Qələbənin 62-ci ildönümü münasibətilə rayon əhalisi qarşısında böyük konsert proqramı təşkil olunmuşdur.

15 May Beynəlxalq Ailə günü, 18 may Beynəlxalq Muzeylər günü, 28 may Respublika günü təntənəli tədbirlərlə qeyd olunmuşdur.

15 İyun Milli Qurtuluş günü münasibətilə Heydər Əliyev parkında geniş konsert proqramı təşkil olunmuşdur.

23 iyun – Dövlət Qulluqçusu günü münasibətilə Mədəniyyət və istirahət parkında təntənəli tədbir keçirilmişdir. Tədbirdə Xanlar Rayon Mədəniyyət evinin «Nərgiz» xalq kollektivi geniş konsert proqramı ilə çıxış etmişdir.

26 iyun – Azərbaycan Silahlı Qüvvələr günü münasibətilə Xanlar rayonunun Toğana kəndində yerləşən «N» saylı hərbi hissədə təntənəli bayram tədbiri təşkil edilmişdir. «Nərgiz» xalq kollektivi tədbirdə rəngarəng konsert proqramı nümayiş etdirmişdir.

2007-ci ilin «Gənclər ili» elan edilməsi ilə əlaqədar olaraq Xanlar rayon Mədəniyyət və Turizm şöbəsi istirahət günlərində rayon gənclərinin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədi ilə iyun ayı ərzində hər həftənin şənbə və bazar günlərində Mədəniyyət və istirahət parkında «Gənclər gecəsi» adlı musiqili-əyləncəli silsilə tədbirlər keçirmişdir. Tədbirin keçirilməsi ilboyu davam etdirilmişdir.

2007-ci ilin I yarım ili ərzində Dövlət proqramı ilə əlaqədar olaraq mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də müəyyən işlər görülmüşdür. Belə ki, mədəniyyət müəssisələrinə ehtiyac duyulan inventar və avadanlıqlar alınıb verilmişdir. Mədəniyyət müəssisələrinin bir çoxunda cari təmir işləri, bəzilərində əsaslı təmir işləri həyata keçirilmişdir. İcra başçısının dəstəyi ilə Xanlar şəhəri H.Əliyev prospekti 58 saylı ünvanda yerləşən və gözəl arxitektur quruluşa malik olan binada H.Əliyev muzeyi yaradılmış, yüksək zövqlə tərtib olunmuşdur.

Yuxarıda qeyd olunanlardan başqa Xanlar şəhərində yerləşən və XIX əsr alman mədəniyyətini özündə əks etdirən bir sıra yerli əhəmiyyətli tarixi abidələr xarici görünüşlərində dəyişiklik edilmədən təmir və bərpa edilmişdir. Belə abidələrdən Xanlar Rayon Polis şöbəsinin, prokurorluğun, musiqi məktəbinin, poliklinikanın, YAP Xanlar rayon təşkilatının yerləşdiyi binaları, Şampan şərabı sexini misal göstərmək olar. Uzun illər heç bir təmir işi aparılmamış Lüteran kilsəsində Xanlar Rayon İcra Hakimiyyəti başçısının təşəbbüsü ilə 2007-ci ilin iyul ayından etibarən əsaslı təmir işlərinə başlanılmışdır.

Hal-hazırda Xanlar Rayon Mədəniyyət və Turizm şöbəsi işlərini günün tələbləri səviyyəsində quraraq fəaliyyətini davam etdirir.

**Ş.VERDİYEVA,**
**Xanlar Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri**